*Energetika*

# Texniki dəyişikliklər davam edir



Son illər ölkəmizdə digər sahələrlə yanaşı, energetika sektorunda da mühüm dəyişikliklər müşahidə olunur, dünya standartları səviyyəsində yenidən qurulur. Məhz bunun nəticəsidir ki, əhali və qeyri-əhali sektorunda abonentlər fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunur, aparılan məqsədyönlü iş nəticəsində yığım faizi yüksəlir.

Paytaxtın hər yerində olduğu kimi, Nizami rayonunda da abonentlər onlara göstərilən enerji xidmətindən razılıqla danışır, aparılan texniki dəyişikliklər onları razı salır. "Azərişıq" ASC Nizami Rayon Enerji Təchizatı və Satışı İdarəsi İstismar şöbəsinin rəisi, təcrübəli energetik İmran Məmmədovla söhbətimizdə abonentlərə göstərilən xidmət işinin müasir tələblər səviyyəsində qurulmasından qürurla danışdı, vurğuladı ki, uğurlu nəticələrə nail olmaq üçün idarədə kadr potensialı güclənmiş, əsas diqqət mütərəqqi metodların tətbiqinə yönəldilmişdir.

Son illər rayonun ərazisində tikinti işləri genişləndirildiyindən abonentlərin sayı artaraq 54800-ə çatmışdır. Sayğaclaşdırma işləri vaxtında həyata keçirilir və istismar müddəti başa çatan avadanlıqlar yenisi ilə əvəz olunur, bu sahədə işlər Tədbirlər Planı əsasında həyata keçirilir.

Ölkəmizdə birinci Avropa Oyunları tarixə qızıl hərflərlə yazıldı, Azərbaycan idmançıları yarışlarda uğurlu nəticələrə imza atdılar və ölkəmiz qazanılan qızıl medalların sayına görə Rusiya Federasiyasından sonra ikinci yeri tutmağa müvəffəq oldular. Yarışların getdiyi 17 gün ərzində rayonumuzun energetikləri tərəfindən rayon ərazisində yerləşən Atletlər kəndində, Media şəhərciyində, Milli gimnastika arenasında enerji təchizatı yüksək səviyyədə qrafikə uyğun təmin olundu.

2015-ci ilin birinci yarısı başa çatmışdır. Vurğulamaq lazımdır ki, ötən 6 ay ərzində energetiklərimizin birgə səyi nəticəcində rayonun Keşlə qəsəbəsində, 6-cı köndələn küçələrində 35/6 kv-luq yeni yarımstansiyalar tikilmiş, müasir tipli yeni elektrik avadanlıqları quraşdırılmış, 35/6 kv-luq yuvalar, havalandırma və soyutma sistemləri, təhlükəsizlik sistemləri nəzərə alınmaqla istifadəyə verilmişdir. Həmçinin 40 kubmetr həcmli yeraltı yaz çəni quraşdırılmışdır ki, bu da fövqəladə hal baş verdikdə transformatorların yağları həmin çənlərə buraxılaraq qəzanın qarşısının qısa müddət ərzində alınmasına səbəb olacaqdır.

İlin 6 ayı ərzində A.Manafov küçəsi 16-da, 10 kv-luq 2x1600KVA, İ.Məmmədov küçəsi 17 ünvanda 10 kv-luq 2x1600 KVA, M.Abbasov küçəsi 1 ünvanda 10 kv-luq 2x1000 KVA olan yeni mühafizə sistemləri olan elektrik avadanlıqları ilə təchiz edilmiş bütün təhlükəsizlik nəzərə alınmaqla soyutma və havalandırma sistemi olan transformator məntəqəsi tikilərək istismara verilmişdir.

Qeyd etmək lazımdır ki, transformator məntəqələrindən binalara gedən qəzalı vəziyyətdə olan 0,4 kv-luq kabel xətləri yeni, daha çox yük götürmə qabiliyyətinə malik yeraltı kabel xətləri ilə əvəz edilmişdir.

İstismar müddəti bitmiş, tez-tez qəzalara səbəb olan 10 kv-luq yeraltı kabel xətləri yeni, müasir tipli yeraltı kabel xətləri ilə əvəz edilmişdir.

İlin birinci yarısında Atletlər kəndini fasiləsiz elektrik enerjisi ilə təmin etmək üçün 3 ədəd hər biri 2x2500 KVA transformator məntəqəsi tikilmiş, 2 ədəd komplekt transformator məntəqəsi quraşdırılmışdır.

Yarımstansiya 208-dən hər transformator məntəqəsinə borular vasitəsi ilə 4 ədəd kabel xətti çəkilmişdir.

Yarımstansiya 208-dən "Fontanlar" parkına 2 ədəd borular vasitəsi ilə yeni kabel çəkilmiş, TM-nin mühafizəsi yoxlanılmışdır. Generator və AVR işlək vəziyyətindədir. Həmçinin yarımstansiya 208-dən "Media şəhərciyi"nə 4 ədəd kabel xətti çəkilmişdir.

H.Əliyev prospektinin "Şəfa" stadionunun qarşısından "Atletlər kəndi"nin qarşısına qədər olan hissəsini işıqlandıran komplekt transformator məntəqəsi yarımstansiya 205-dən qidalanırdı. Kabel istismara yararsız vəziyyətdə olduğundan həmin komplekt transformator məntəqəsinə yarımstansiya 208-dən borular vasitəsilə ilə 680 metr yeni kabel xətti əvəzlənmişdir.

H.Əliyev prospektinin "Koroğlu" metrostansiyasından Zabrat dairəsinə qədər hissəsi, yarımstansiya 204-dən qidalanan transformatorlar vasitəsi ilə işıqlandırılır.

İmran Məmmədov onu da qeyd etdi ki, rayon ərazisində yerləşən "Neolit", "Altun", "Neptun" restoranlarına 220/110/35/6 kv-luq "Nizami" yarımstansiyaya gələn 6 kv-luq hava xətti yeraltı kabel xətti ilə əvəz edilmişdir.

**Söhbəti yazdı:**
**Qədir ASLAN,**
**"Respublika".**